## TƏNHA QALMIŞ HƏYƏTİMİZ

Gəzirəm yenə də həyətimizdə,
Hər tərəf elə bil xəyala dalıb.
Burda çox doğmadır cığırlar, izlər,
Gənclik illərimdən xatirə qalıb.

* * *

Birinci sinifə getdiyim vaxtlar,
Qarağac tingini atam əkmişdi.
Almayla, əncirlə, heyvayla dolu,
Bağın qayğısını nənəm çəkmişdi.

* * *

Saçaqlı söyüdü salamlayıram,
Onun kölgəsinə çox sığınmışam.
Dil açıb söyləyir uşaqlığımı,
Nə dəcəl olmuşam, nə çılğınmışam.

* * *

Tənhalıq hönkürür həyətimizdə,
Üstümə elə bil sükunət yağır.
Bu ata yurdumun tənhalıq yükü,
Sanıram dünyanın yükündən ağır.

## NƏZAKƏT XANIMA

İsməti əyilməz, qüruru sınmaz,
İlahi eşqiylə yaşayan qadın.
Gülüşün yaraşır gülər üzünə,,
Sevinci qəlbində daşıyan qadın.



*Damət SALMANOĞLU*

* * *

Adının mənası ədəb, mərifət,
Sənə çox yaraşır Nəzakət adı.
Qədrini çoxları bilməsə belə,
Canından can bildin doğmanı, yadı.

* * *

Ərsəyə yetirdin min bir zəhmətlə,
Övladın, həyatın səcdəgahındır.
Balanın balası baldan da şirin,
Nəvələr Məkkəndir, qibləgahındır.

* * *

Sənin dəyərini Rəbbin veribdir,
Qoy hamı anlasın budur həqiqət.
Səbrin baş tacındır, düzlük amalın,
Daim ucaldıbdır səni ləyaqət...